

**Olduqca keşməkeşli və ibrətamiz həyat və yaradıcılıq yolu keçən xalq rəssamı Ə.Əzimzadənin çoxşaxəli yaradıcılığı yüksək bədii və tarixi-idrakı dəyərə malik müxtəlif planlı əsərlərlə zəngindir. Onun yaradıcılığı bir çox sənətşünasların diqqətini cəlb etmiş, bununla belə, rəssamın yaradıcılığına həsr olunmuş əksər kitab və broşürlərdə elmi-populyar işlər xaricindən kənara çıxmamışdır. Əzim Əzimzadə mövzusu M.Nəcəfovun tədqiqatlarında əsas yerlərdən birini tutur.**

# ƏZİM ƏZİMZADƏ İRSİNİN TƏDQİQİ

## Professor Mürsəl Nəcəfovun elmi yaradıcılığında

**Mürsəl Nəcəfov həmin mövzuda doktorluq dissertasiyası müdafiə etmiş, ümumiyyətlə bir çox tədqiqatlarında Ə.Əzimzadənin yaradıcılıq xüsusiyyətlərini işıqlandırmışdır. M.Nəcəfov görkəmli rəssamımız haqqında bir neçə dəfə kitab və albom nəşr etdirmişdir. Bir-birindən daha rəngarəng olan bu nəşrlər Ə.Əzimzadənin xatirəsinə samballı elmi-tədqiqi abidədir. Onlardan "Xalq rəssamı Ə.Əzimzadə", "Əzim Əzimzadə" və başqalarını göstərmək olar.**

Mürsəl müəllim namizədlik dissertasiyasını "Əzim Əzimzadənin satirası" (Leninqradda, İ.Repin adına Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda müdafiə edib), doktorluq dissertasiyasını isə "Əzim Əzimzadənin Azərbaycan incəsənətində mövqeyi" (Azərbaycan EA-da) mövzusunda müdafiə etmişdir.

M.Nəcəfov Ə.Əzimzadənin müharibə dövründə fəaliyyətindən də geniş məlumat verib. Yaşı 60-ı ötmüş Ə.Əzimzadə ağır xəstəliyinə baxmayaraq, iki il müddətində (O, 1943-cü ilin iyul ayında vəfat etmişdir) 50-dən yuxarı satirik plakat və karikatura yaratmışdır. Xalq rəssamının cəbhə xəbərlərinə əsasən çəkdiyi karikaturalar "Kommunist" və "Bakinskiy raboçiy" qəzetlərində dərc edilirdi. "Öz karikaturalarını Ə.Əzimzadə, bir qayda olaraq, akvarel boyalarıyla işləyirdi. İndi respublika muzeylərində rəssamın onlarla antifaşist karikaturası saxlanılmaqdadır ki, bunları istər məzmunun ifşaedici təsir qüvvəsinə, istərsə də təsvir vasitələrinin kəsərinə görə sovet satirik qrafikasının müharibə dövründə yaradılmış ən kamil nümunələri ilə bir sıraya qoymaq olar" (2, s.5). M.Nəcəfov sənətçinin 1941-1943-cü illərdə işlənmiş "Vurulmuş kartlar", "Fürerin qənimətləri", "Vətən", "Tovuz ləkli qarğa", "Faşizmin üç üzü", "Berlin - Roma - Tokio oxu" və s. karikaturalarını rəssamın sənətinin son akkordları kimi qiymətləndirirdi.

Mürsəl Nəcəfovun sənətşünaslıq sahəsində ilk böyük işi 1954-cü ildə Moskvada çap etdirdiyi "Əzim Əzimzadə" monoqrafiyasıdır. Bu monoqrafiya görkəmli Azərbaycan rəssamı barədə ilk samballı əsərdir. Sənətşünas böyük rəssamı şəxsən tanıdığı və yaradıcılığına yaxından bələd olduğu üçün monoqrafiya həm elmi, həm də bədii baxımdan maraqlı çıxmışdır. Mürsəl Nəcəfov bu əsərdə Əzim Əzimzadəni təkcə karikatura rəssamı kimi məhdudlaşdırmır, onun geniş diapazonlu bir rəssam olduğunu sübuta yetirir, milli teatr-dekorasiya sənətimizin inkişafında böyük xidmətlərini göstərir. Rəssamın Azərbaycan teatrları üçün çəkdiyi geyim eskizlərini - səhnə surətlərinin təsvirlərini araşdırdıqdan sonra M.Nəcəfov Əzim Əzimzadənin Azərbaycanda teatr-dekorasiya sənətinin banisi olduğu kimi, teatr rəssamlığı sahəsində də Əzim Əzimzadənin ənənələrini gözəl bir məktəb kimi qiymətləndirir.

Yuxarıda qeyd etdiyimiz kimi, Ə.Əzimzadə M.Nəcəfovun atasının yaxın dostu, özünün isə müəllimi olmuşdur. Bu görkəmli rəssamın xeyir-duası ilə gənc Mürsəl rəssamlığa maraq göstərib, nəhayətdə Rəssamlıq məktəbinə daxil olub. M.Nəcəfovun Əzimzadə yaradıcılığına aludəçiliyi məhz bu zaman başlayıb. Bəlkə elə buna görə gələcək sənətşünas-alimin hələ Leninqradda İ.Repin adına Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda təhsil aldığı zaman yazdığı diplom işi "Ə.Əzimzadənin satirası" (1958) mövzusuna həsr olunub.

Onu da qeyd etmək yerinə düşər ki, hələ tələbə vaxtına düşdüyü bu diplom işində M.Nəcəfov artıq formalaşmış sənətşünas kimi çıxış edir, Ə.Əzimzadə yaradıcılığının öyrənilməsinin aktuallığını sübuta yetirir, rəssamın zəngin yaradıcılığının cüzi sayda olan məqalə və çıxışlarda əksini tapmasının kifayət olmadığını bildirir. Gənc sənətşünas hətta A.Qazıyevin "İskusstvo" jurnalında çap etdirdiyi məqaləsinə də tənqidi yanaşmaqdan çəkinmir.

Ə.Əzimzadənin ayrı-ayrı karikaturalarının seçimi və təhlili zamanı M.Nəcəfov əsərlərin həm mövzu, həm də bədii mahiyyətini nəzərə alır, peşəkar sənətşünas kimi rəssamın fərdi manerası, dəst-xətti, üslub xüsusiyyətləri haqqında məlumat verir. Diplom işi üzərində apardığı araşdırmalar zamanı o, Ə.Əzimzadənin bütün əsərlərindən ibarət olan kataloq tərtib edir. Bu kataloqa rəssamın 2800 işi daxil edilmişdir.

Şübhəsiz, diplom işi yazılan dövrün ideoloji mühiti əsərin siyasi istiqamətinə öz təsirini göstərməyə bilməzdi. Belə ki, burada M.Nəcəfov görkəmli rəssamın satirik yaradıcılığının sovet adamlarının sosializmdən kommunizmə keçid dövründə kommunist tərbiyəsi işinə təsirindən, xalqın insanların şüurunda kapitalizmin qalıqları ilə mübarizəsindən danışır. Lakin bütün bunlar, tədqiqat işində aparılan sərf elmi araşdırmaları üstələmir. Tədqiqatda toplanmış zəngin faktiki material sistemləşdirilmiş və sənətşünaslıq tələblərinə əsaslanaraq təhlil edilmişdir. Faktiki materialın seçimində müəllif bədiilik, aktuallıq, orijinallıq və satirik kəsərlilik meyarlarından çıxış etmişdir.

Bir ildən sonra, yəni 1959-cu ildə M.Nəcəfovun "Xalq rəssamı Əzim Əzimzadə" adlı kitabı işıq üzü görür. Əsər Leninqradda müdafiə olunan həmin diplom işinin əsasında yaranmışdır.

Bu baxımdan M.Nəcəfovun 1969-cu ildə müdafiə etdiyi "Azərbaycan incəsənətinin inkişafında Əzim Əzimzadənin rolu" adlı doktorluq dissertasiyası görkəmli rəssamımız Ə.Əzimzadənin yaradıcılığının öyrənilməsinə həsr edilmiş ən mükəmməl və əhatəli monoqrafiyalardan biri hesab olunur. Elmi əsərdə Azərbaycan xalqının incəsənət tarixində ən maraqlı, özünəməxsus və parlaq hadisələrdən birinin öyrənilməsi nəticəsində aşkar olunan maraqlı məlumatlar, mülahizələr, elmi qənaətlər cəmləşib. Tədqiqata indiyə kimi elmi ictimaiyyətə az məlum olan, çox zaman isə ümumiyyətlə məlum olmayan əhatəli material cəlb edən M.Nəcəfov, Azərbaycan sənətşünaslıq ədəbiyyatında bu sahədə yaranmış boşluğu əhəmiyyətli dərəcədə doldurmuşdur. Alimin tədqiqat işinin elmi və tarixi-mədəni əhəmiyyəti məhz bununla müəyyən olunur.

Ə.Əzimzadə XX əsr Azərbaycan ziyalılarının mütərəqqi ordusuna aiddir. Bu istedadlı ustad Sabir, Cəlil Məmmədquluzadə, Ü.Hacıbəyli kimi Azərbaycan mədəniyyətinin titanları ilə bir sırada durur.

Lakin, əgər dahi inqilabçı şair olan Sabirin əsərləri, Məmmədquluzadənin realistik dramaturgiyası və nəsri, Hacıbəylinin sırf milli musiqisi o dövrdə həm ölkəmizdə, həm də xaricdə kifayət qədər yaxşı tanınmışdılarsa, Əzimzadənin bədii irsi hələ də Azərbaycandan kənarda olan minlərlə sənətsevərə məlum deyildi. Bu da onunla izah olunurdu ki, Azərbaycan rəssamının zəngin irsi uzun müddət tədqiqatçıların diqqət mərkəzindən kənarda idi, onun dərin məzmunlu həyatı, aktiv ictimai-siyasi və maarifçilik fəaliyyəti hərtərəfli dərin təhlil obyektinə çevrilməmişdir. Ən pisi o idi ki, o illərdə nə Azərbaycanda, nə də ki ölkənin hüdudlarından kənarda rəssamın heç bir reproduksiyalı albomu və yaxud, heç olmasa, seçilmiş əsərlərin açıqca komplekti yox idi. Bununla belə, məhz illüstrasiyalı monoqrafiyaların, albomların, reproduksiya toplularının kütləvi nəşri Azərbaycan incəsənəti ustalarının yaradıcılığının geniş təbliğinə və populyarlığına səbəb olur.

Azərbaycanın yaradıcı ziyalıları arasında ciddi narazılığına səbəb o dövrün son xüsusi tədqiqatların əksəriyyətində Azərbaycan realist incəsənətinin banisinin yaradıcılığına müvafiq yer ayrılmaması idi. Məsələn, 1960-cı ildə Moskvada işıq üzü görən "Sovet Azərbaycan incəsənətində sosialist realizminin təşəkkülü" adlı samballı nəşrdə Ə.Əzimzadənin adı belə çəkilməmişdi. Bu yeganə misal deyildi.

M.Nəcəfovun qənaətinə görə, sovet xalqlarının, o cümlədən Azərbaycan xalqının mədəniyyəti tarixinə dair ümumiləşdirilmiş əsərlər üzərində işləyən tarixçilərin, sənətşünasların və ədəbiyyatçıların vəzifəsini Ə.Əzimzadə haqqında kapital monoqrafiyanın olmaması çətinləşdirir. Bunu dərk edən sənətşünas-alim etiraf edirdi ki, görkəmli rəssam haqqında yazılanlar və nəşr olunanlar (özünün dissertasiyası daxil olmaqla) Ə.Əzimzadənin sosialist mədəniyyətinin inkişafına gətirdiyi töhfəni dolğunluqla dəyərləndirmək üçün kifayət deyil. Bu faktı nəzərə alaraq M.Nəcəfov Ə.Əzimzadənin satirik qrafikasına həsr etdiyi namizədlik dissertasiyasının materiallarını istifadə etməklə, xalq rəssamlarının yaradıcılıq təcrübəsinin digər aspektlərini əhatə edən yeni tədqiqatlarını daxil etməklə özünün çoxillik işlərini xüsusi monoqrafiyada bir araya toplayır. Buna görə də dissertasiyada rəssamın qiymətli satirik irsindən başqa, Ə.Əzimzadənin tematik rəngkarlığa, kitab illüstrasiyasına, plakata, mənzərəyə, eləcə də teatr-dekorasiya sənətinə və publisistikasına da əhəmiyyətli yer ayrılır. Alimin tədqiqatçılıq səriştəsi Əzimzadənin vaxtilə İrana və İraqa səfərləri barədə yazıların aşkar edilməsi ilə müəyyən olunur. Mürsəl müəllim rəssamın məktub və məqalələrindən də geniş istifadə etmişdir.

M.Nəcəfovun Ə.Əzimzadənin Azərbaycanın müxtəlif muzeylərində və arxivlərində saxlanılan 5000-dən artıq əsərini toplamış, hərtərəfli tədqiq və təhlil etmişdir. Xüsusən rəssamın R.Mustafayev adına İncəsənət muzeyində, Azərbaycan Tarix muzeyində, V.İ.Lenin adına Mərkəzi muzeyin Bakı filialında, C.Cabbarlı adına Teatr muzeyində, Nizami adına Ədəbiyyat muzeyində, Respublika Əlyazmaları fondunda qorunub saxlanılan çoxsaylı orijinal əsərlər təfsilatla öyrənilmiş, onların müəyyən hissəsi təsvir və təhlil olunmuşlar. Fədakar tədqiqatçı Əzimzadənin Moskvanın və Yerevanın muzey və xəzinələrində (Şərq xalqları incəsənəti Dövlət muzeyində, V.İ.Lenin adına Dövlət kitabxanasında, A.Baxruşin adına teatr mu-

zeyində, Ermənistan SSR Rəsm qalereyasında), müxtəlif şəxsi kolleksiyalarda saxlanılan əsərlərini də aşkar edib üzə çıxarmışdır. Bundan başqa, rəssamın dövri mətbuatda (satirik və ədəbi jurnallarda, qəzetlərdə, kitablarda, albomlarda və s.) minlərlə karikaturaları, yumoristik rəsmləri, şarjları, kitab və jurnal illüstrasiyaları, siyasi və təşviqat plakatlarının çap və trafaret basmaları araşdırılıb istifadə edilmişlər. Monoqrafiya üzərində iş prosesində M.Nəcəfov sənətşünaslıq elminin aparıcı metodoloji üsullarından istifadə etmə bacarığını nümayiş etdirdi: Əzimzadə yaradıcılığının bədii-stilistik xüsusiyyətlərinin müqayisəli-təhlili vasitəsilə görkəmli rəssamın əhəmiyyətli sayda rəsm və illüstrasiyalarını aşkar etməyə nail oldu. Nəticədə, ilk dəfə olaraq xalq rəssamının əsərlərinin siyahısı kataloq halına salınaraq alimin 1965-ci ildə "Azərnəşr" nəşriyyatında çapdan çıxan "Əzim Əzimzadə" adlı kitabına (rus dilində) əlavə kimi salındı.

Ə.Əzimzadə əsərlərinin aşkarlanması və atributsiya olunması üzərində aparılan iş adı çəkilən kitabın nəşrindən sonra da davam etdi. Azərbaycan SSR-nin arxivlərində, Əlyazmalar fondunda, SSRİ və Azərbaycan SSR Rəssamlar İttifaqında, nəhayət, rəssamın şəxsi arxivində saxlanılan sənədlər və məktublar Əzimzadənin olduqca məhsuldar yaradıcılığı, ictimai-siyasi fəaliyyəti haqqında geniş məlumatlar toplayan M.Nəcəfov görkəmli rəssamın ictimai-siyasi və çoşqun maarifləndirici fəaliyyətini də əhatəli surətdə, hərtərəfli təhlil etməyə müəssər olmuşdur.

M.Nəcəfovun xalq rəssamı Ə.Əzimzadənin yaradıcılığının tədqiqi nəticələrini nəzərdən keçirsək, ilk növbədə alimin istedadlı sənətkarı Azərbaycan təsviri sənətində sosialist realizmi prinsiplərinə əsaslanan bir rəssam kimi təqdim etməsidir. Öz dövrünün aparıcı inqilabi-demokratik dünyagörüşündə tərbiyə alan Əzimzadə "Hümmət" təşkilatının görkəmli başçıları ilə bir sırada zəhmətkeş kütlələri arasında yorulmaz siyasi-tərbiyəvi iş aparmışdır. Rəssam təkcə öz fırçası və qələmi ilə deyil, canlı, ehtiras dolu sözlərlə də fəhlə və kəndlilərin şüurunun yüksəlişinə təkan verir, cəmiyyətdəki bütün mürtəce hallarla mübarizə edirdi.

Sənətşünas-alim Azərbaycanda satirik qrafikanın müasir formalarının meydana gəlməsində Azərbaycanda ilk satirik jurnalı olan "Molla Nəsrəddin"in də həlledici rolunu da vurğulayırdı. Azərbaycan satirik qrafikasının təşəkkülündə M.Nəcəfov "Molla Nəsrəddin" jurnalına onun yaradıcısı və dəyişməz redaktoru olan C.Məmmədquluzadə tərəfindən cəlb edilmiş O.Şmerlinq və İ.Rotter kimi rəssamların müstəsna əməyini vurğulayırdı. Alim, "Molla Nəsrəddin" jurnalını ilk azərbaycanlı satirik rəssamı olan Əzim Əzimzadənin ideya-professional tərbiyəsində həqiqi məktəb hesab edirdi.

Bir sənətşünas olaraq M.Nəcəfov xüsusi diqqəti Ə.Əzimzadənin karikaturaçı rəssam kimi bədii yaradıcılıq üslubunun formalaşmasına yönəltmişdir ki, bunu da ustadın inqilaba qədərki "Kəlniyyət", "Baraban", "Məzəli", "Zənbur" illüstrativ jurnallarla aktiv əməkdaşlığında görürdü. Alim əminliklə qeyd edirdi ki, Azərbaycan təsviri sənətində satirik məktəbin formalaşmasında Ə.Əzimzadənin yaradıcılığı əhəmiyyətli yer tutur. Çünki məhz Əzimzadənin təsiri altında sonralar görkəmli rəssamlar olmuş Ə.Hacıyev, İ.Axundov, Q.Xalıqov, K.Dorn və b. cavanlar yaradıcılıq həyatına başlamışlar.

M.Nəcəfov Ə.Əzimzadəni həm də realist kitab illüstrasiyasının banisi hesab edirdi. Rəssamın çoxsaylı illüstrativ əsərlərini təhlil edən sənətşünas xalq rəssamının kitab qrafikasında iki təmayülü izləməyə nail olur: 1) onun satirik jurnal illüstrasiyasının parlaq ifadəli təzahürünü; 2) milli miniatür boyakarlıqdan götürülmüş üsulları. Sənətşünas Ə.Əzimzadənin kitab illüstrasiyasında ən gözəl nailiyyətlərini satirik yazıçılar olan Sabirin, Məmmədquluzadənin, Haqverdiyevin və b. əsərləri ilə bağlayırdı.

Professor Nəcəfov Əzimzadəni sovet siyasi plakatın aparıcı ustadlarından biri hesab edirdi, bu da təsadüfi deyil, çünki məhz bu rəssam tərəfindən yeni tip plakatın - fəhlə və kəndlilərin savadsız kütləsi üçün nəzərdə tutulan plakat-illüstrasiyaların ilk nümunələri yaradılmışdır.

Ə.Əzimzadə yaradıcılığına müraciət edən sənətşünas-alimin əsas nailiyyəti görkəmli rəssamın indiyə kimi tədqiqat obyektinə çevrilməyən teatr-dekorasiya sənətinin araşdırılması ilə bağlıdır. M.Nəcəfovun qeyd etdiyi kimi, Ə.Əzimzadə Azərbaycan teatr-dekorasiya sənətinin təşəkkülü və inkişafı tarixində müstəsna yer tutur. Hələ inqilaba qədərki illərdə o, ilk dəfə olaraq professional Azərbaycan teatrı üçün geyim eskizləri və dekorasiyalar yaratmağa başlayır. Ə.Əzimzadənin milli dramaturji və opera tamaşalarına, digər xalqların və millətlərin həyat və mübarizəsinə həsr edilmiş pyeslərə yaratdığı səhnə obrazları böyük bədii və tarixi dəyərə malikdirlər, teatr və kino xadimləri üçün tükənməz mənbədirlər. Əzimzadənin teatr eskizlərinin obrazları əsasında Azərbaycan teatr və kino rəssamlarının bir çox nəsli öyrənib və indi də öyrənməkdədir.

M.Nəcəfov görkəmli rəssamı Azərbaycan xalqının inqilaba qədərki həyatından bəhs edən süjetli-tematik əsərlərin misilsiz ustadı hesab edirdi. Ə.Əzimzadənin "Müsəlmanların züvvarı" adlı tematik seriyası, eləcə də aydın, anlaşıqlı formada dini mərasimlərin və adətlərin mürtəce mahiyyətini açan bir çox başqa əsərləri o dövrün ateist təbliğatında vacib zahiri material olaraq qalmaqda idi. Rəssamın dinə qarşı yönəlmiş seriyaları ilə bərabər, onun əlyazmaları da ateist təbliğatın mühüm vasitəsi kimi qiymətləndirilir.

Ə.Əzimzadənin bədii irsində inqilaba qədərki tiplər qalereyası xüsusi yer tutur. Bu təsvirləri xüsusi təhlil edən sənətşünas onların bədii təcrübədə öyrənilməsi və tətbiqi üçün dəyərli mənbə hesab edirdi.

Görkəmli rəssamın yaradıcılıq təcrübəsində mənzərənin ikinci yer tutmasına baxmayaraq, M.Nəcəfov Ə.Əzimzadənin bu sahədə olan əsərlərini araşdırıb və onu müasir Azərbaycan incəsənətində B.Kəngərlidən sonra mənzərə janrının yaradıcısı kimi qiymətləndirib.

XX əsr Azərbaycan mədəniyyətinə Ə.Əzimzadə istedadlı söz ustası kimi də daxil olub. Bunu iddia edən M.Nəcəfov, onun çoxsaylı publisistik əsərlərinə (məqalələrinə və felyetonlarına), eləcə də çap olunmamış əlyazmalarına ("Mənim səyahətim") və rəssamın məktublarına istinad edir. Sənətşünas qeyd edir ki, Əzimzadənin dili sadəliyi ilə seçilir, xalq deyimləri və zərbi-məsəllər ilə zəngindir.

Ə.Əzimzadə yaradıcılığının idrakı gücünün təkcə iti tematikası və aktuallığı ilə seçilmədiyini bildirən M.Nəcəfov, bunu eləcə də bədii vasitələrin ifadəliliyində görürdü. Əsl realist olan Ə.Əzimzadənin öz əsərlərini olduqca aydın kompozisiyalar, insan həyəcanının daxili dinamikası, canlı xətt və ştrixlər vasitəsi ilə açdığını bildirirdi. Özünün satirik rəsmlərində rəssam "hadisə və situasiyaları konkretləşdirir, faktları məntiqi anlayış dilindən zahiri obrazlar dilinə köçürürdü" (B.Yefimov). Sənətşünas-alim rəssamın yaradıcılıq arsenalında satiranın döyüş silahı olan qroteskin və qiperbolanın, simvolun və alleqoriyanın həmişə hazır vəziyyətdə olduğunu göstərir.

İncəsənət tədqiqatçısı və təbliğatçısı olan M.Nəcəfov, sənətşünaslıq elminin tənqid sahəsini də unutmur, təhlil etdiyi hər bir əsərə öz münasibətini bildirməyə çalışırdı. Çox zaman rəssamın bu və ya digər kompozisiyasına, tiplərinə, mənzərələrinə baxarkən akademik peşəkarlığın tərəfdarları onlarda əsərin, guya, bədii-ideya dəyərini aşağı salan qüsurlar tapırlar. M.Nəcəfov Ə.Əzimzadənin yaradıcılığındakı mütərəqqi təmayüllərini şübhə altına salan bu kimi fikirləri qətiyyətlə rədd edirdi. Rəssamın novatorluğunu onun incəsənətindəki vətəndaş mövqeyində, təsvir formasının olduqca aydın və anlaşıqlı olmasında, milli bədii təmayüllərə mütərəqqi münasibətində görürdü.

Professor M.Nəcəfov Ə.Əzimzadənin novator ruhuna XX əsr Azərbaycan incəsənətinin ümumi demokratik təmayüllərindən təcrid olunmuş halda baxmırdı. Bu azmış kimi, o, xüsusi olaraq rəssamın aparıcı Azərbaycan ədəbiyyatının, musiqisinin, jurnalistikasının ideya-bədii konsepsiyalarına, "Molla Nəsrəddin" məktəbinin konsepsiyalarına meylli olduğunu qeyd edirdi.

İllər ötdükcə M.Nəcəfovun satirik qrafikaya olan marağı tükənmir, sönmür. O, vaxtaşırı bu mövzuya qayıdır, maraqlı məqalələrlə dövri mətbuatda çıxış edir. Bu sırada alimin "Qobustan" jurnalında (25 aprel, 1986-cı ildə) çıxmış "Molla Nəsrəddin" jurnalının 80 illiyinə həsr olunmuş "Molla Nəsrəddin"in rəssamları" adlı məqaləsi xüsusi maraq doğurur. Məqalədə sənətşünas-alim jurnalın keçdiyi keşməkeşli yaradıcılıq yolu, burada çalışan ilk rəssamlar haqqında məlumat verir, ən əsası da özünün sevdiyi mövzusundan - Ə.Əzimzadə yaradıcılığından yan keçə bilmir.

Alimin gəldiyi qənaətə görə, "əsrimizin əvvəllərinə kimi Azərbaycanda, əsasən, dekorativ-tətbiqi sənət sahəsində inkişaf görünürdüsə, "Molla Nəsrəddin" meydana gələndən sonra satirik qrafika, illüstrasiya və siyasi plakat janrlarının o zamankı ictimai-siyasi hadisələr fonunda cücərib boy atması da özünü göstərirdi" (3). Mirzə Cəlilin jurnalın əməkdaşları ilə apardığı işdən xəbər verən M.Nəcəfov, gərgin araşdırmalar nəticəsində üzə çıxardığı bir çox yenilikləri, o dövrdə jurnalla əməkdaşlıq edən rəssamların xatirələrini bir araya toplayıb maraqlı məlumat əldə edə bilmişdi. Bu sırada sənətşünasın gənclik illərində jurnalda çalışan İsmayıl Axundovdan aldığı xatirələr böyük maraq doğurur: "Mirzə Cəlil, O.Şmerlinq və İ.Rotter kimi milliyyətcə avstriyalı və alman olan rəssamlara məsləhət verir, rəsmlərin süjetlərini müəyyən edir, hətta tipləri göstərir, lazım gəlsə bu və ya başqa tipin hərəkətini, mimikasını nümayiş etdirir" (M.N. "Molla N.").

"Molla Nəsrəddin" jurnalının ilk azərbaycanlı rəssamı olan Ə.Əzimzadə haqqında ətraflı məlumat verən M.Nəcəfov, görkəmli rəssamın məhsuldar fəaliyyətindən xəbər verərək, onun jurnalın hər nömrəsi üçün 8-10 rəsm və karikatura çəkdiyini bildirir. Alim göstərir ki, istedadlı gəncləri jurnalla əməkdaşlıq etməyə ruhlandıran Ə.Əzimzadə 20-ci illərdə Q.Xalıqov, Ə.Hacıyev, K.Dorn, İ.Axundov, H.Əliyev və b. satirik rəsmlərini jurnalda çap elətdirirdi.

M.Nəcəfovun təqdim etdiyi əsərdə Ə.Əzimzadənin həyat, yaradıcılıq və maarifçilik fəaliyyəti təkcə təsviri sənətin deyil, eyni zamanda Azərbaycanın teatrı və dramaturgiyasının, jurnalistikanın və bədii ədəbiyyatın təşəkkülü və sonrakı inkişafı ilə ayrılmaz əlaqədə izlənilir. Əzimzadənin əsl xalq rəssamı kimi formalaşmasını mərhələlərlə nəzərdən keçirən sənətşünas, bir məqsəd kimi Azərbaycanın müasir təsviri sənətinin ən vacib sahələrinin təşəkkülündə onun yaradıcılığının mahiyyətini təyin etmək məsələsini irəli sürür. Məqsəddən irəli gələrək alim, Ə.Əzimzadənin satirik qrafika, kitab illüstrasiyası, siyasi plakat, teatr-dekorasiya sənəti və s. sahələrindəki yaradıcılıq təcrübəsini ümumiləşdirməyə nail olur.

**● Pərvanə ƏLİYEVA,**
***AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun dissertantı***

**Ədəbiyyat**

1. Nəcəfov M., Tərlanov M., Əfəndiyev R. Təsviri incəsənət - Bakı: Azərnəşr, 1962.
2. Nəcəfov M. O illəri yad edərkən // "Qobustan" incəsənət toplusu, 1975, № 2 (15), s.4-7.
3. Nəcəfov M. "Molla Nəsrəddin"in rəssamları // "Ədəbiyyat və incəsənət" qəz., 25 aprel, 1986.
4. Zeynalov X. Mürsəl Nəcəfov // "Mədəniyyət və incəsənət" toplusu, may 2003, s.31-34.
5. Наджафов М., Габибов Н. Искусство Советского Азербайджана - М.: Советский художник, 1960.

**Təqdim etdi:** AMEA-nın Memarlıq və İncəsənət İnstitutu
**Elmi rəhbər:** sənətşünaslıq doktoru, professor Rəna Abdullayeva